**Azərbaycan Respublikası**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN QƏRB BÖLGƏSİNİN KİÇİK QAFQAZ ƏRAZİSİNDƏKİ ORTA ƏSR ABİDƏLƏRİ

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Vüsalə Aslan qızı Axundova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: **Arif Məhəmməd oğlu Məmmədov**
tarix elmləri doktoru, professor

Elmi məsləhətçi: **Hacı Nuru oğlu Həsənov**
tarix üzrə fəlsəfə doktoru, dosent

Rəsmi opponentlər: **Əsməd İmamməmməd qızı Muxtarova**
tarix üzrə elmlər doktoru, professor

**Camal Mehdi oğlu Mustafayev**
tarix üzrə elmlər doktoru, professor

**Bəhmən Bəhram oğlu Kərimov**
tarix üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Tarix elmləri doktoru, professor

_______________ **İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru, dosent

_______________ **Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: Tarix elmləri doktoru, dosent

_______________ **Fazil Eynulla oğlu Baxşəliyev**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi * BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş. * Ministry of Science and Education of the Republic of Azerbaijan * BAKU STATE UNIVERSITY l.e.p.l.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"19" 07 2024

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində aparılmış tarixi-arxeoloji axtarış və tədqiqat işləri burada orta əsrlər dövrünə aid zəngin maddi mədəniyyət nümunələrinin, çoxsaylı müxtəlif abidələrin, yaşayış yerlərinin, qalaların olması və aşkar edilməsi ərazinin ilk orta əsrlər dövründə Qafqaz Albaniyası tarixində, inkişaf etmiş və son orta əsrlər dövründə isə ayrı-ayrı Azərbaycan dövlətlərinin tarixində önəmli yerə malik bölgələrimizdən biri olduğundan xəbər verir. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin böyük hissəsi – müasir Daşkəsən, Göygöl rayonlarının ərazisində, həmçinin Goranboy rayonunun yuxarı dağlıq bölgəsində zəngin abidələrin olması burada bütövlükdə orta əsrlər dövründə davamlı və sıx məskunlaşmanın olduğunu təsdiq edir. Arxeoloji axtarışlar, qazıntılar və tədqiqatlar nəticəsində əldə edilmiş maddi mədəniyyət nümunələri, aşkar edilmiş yaşayış yerləri, dini abidələr, çox saylı qalalar, digər müxtəlif tip arxeoloji abidələr bölgənin orta əsrlər dövrünün tarixi-arxeoloji baxımdan bütövlükdə öyrənilməsi ehtiyacı ayrıca olaraq bu tədqiqat mövzusunun seçilməsini zəruri etmişdir.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisi təbii-coğrafi mövqeyinə və şəraitinə görə daha qədim zamanlardan əcdadlarımızın məskunlaşdığı və davamlı olaraq yaşadığı bölgələrimizdən biri olmuşdur. Bu bölgədə bütövlükdə orta əsrlər dövründə də sıx məskunlaşma olmuşdur. Buna görədir ki, bəhs olunan bölgə orta əsr abidələrinin zənginliyi ilə diqqəti cəlb edir. Bütün bunlara baxmayaraq bu bölgənin orta əsr abidələrinin öyrənilməsi ayrıca bir tədqiqat mövzusu olmamışdır. Buna görə də Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin orta əsr abidələrinin kompleks şəkildə ayrıca olaraq tədqiqi tədqiqatın aktuallığını şərtləndirən amillərdəndir.

Mövzunun aktuallığını şərtləndirən məsələlərdən biri də bəhs olunan bölgənin orta əsr abidələrinin olduqca zəif öyrənilməsidr. Nəzərə alsaq ki, Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində orta əsrlər dövrünə aid zəngin abidələrin olmasına

baxmayaraq onların heç də hamısı qeydə alınmamışdır. Daşkəsən və Göygöl rayonlarının ərazisində, Goranboy rayonunun dağlıq kəndlərinin yaxınlığında, qalın meşəlik ərazilərdə çoxlu sayda dini abidələrə, əsasən Alban xristian abidələrinə rast gəlinmişdir. İlk orta əsrlər dövrünə aid dini abidələrin böyük əksəriyyətinin tədqiq edilməməsi də tədqiqatın elmi aktullığını şərtləndirməkdədir. Həmçinin bölgədə inkişaf etmiş orta əsrlər dövrünə aid Alban xrsirian məbədlərinin mövcud olması, bu bölgədə əhalinin bir qisminin ilk orta əslər dövründən etibarən xrsitian dinində qalması məsələlərinin tədqiq edilməsi zərurətini meydana çıxarır. Daşkəsən-Göygöl bölgəsinin müxtəlif dövrlərə aid abidələrinin, xüsusilə də bütövlükdə orta əsr abidələrinin tədqiq edilməsinə böyük ehtiyac vardır. Göygöl bölgəsində orta əsrlər dövrünə aid Balçılı Qız qalasında, Köşkü Qız Qalasında, Zurnabad qalasında epzodik arxeoloji kəşfiyyat işlərinin aparılmasından başqa bu abidələrdə geniş arxeoloji tədqiqatlar həyata keçirilməmişdir. Bəhs olunan orta əsr qalalarının tədqiqi zərurəti də ortaya çıxmaqdadır.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin orta əsr abidələri ilə bağlı yazılı mənbə məlumatlarını və tədqiqat məsələlərini təhlil edərək, onları üç qrupa bölmək olar: 1.Bölgənin orta əsr yaşayış yerləri, qalaları və tarixi coğrafiyası ilə bağlı yazılı mənbə məlumatları. 2.Arxeoloji tədqiqatlar. 3.Nəzəri tədqiqatlar.

Yazılı mənbələrdə tədqiq etdiyimiz bölgə ilə bağlı məlumatlar əsasən Gəncə şəhəri və onun ətraf ərazisi ilə əlaqədar olaraq öz əksini tapmışdır. Moisey Kalankatuklu[1], Zəkəriyyə əl-Qəzvini[2], Həmdullah Qəzvini[3], Yaqut əl-Həməvi[4], Kirakos Gəncəli[5] və

---

[1] Kalankatuklu Moisey. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. (Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur.) / M.Kalankatuklu., M.Qoş – Bakı: Elm, – 1993 – 270 s.

[2] Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. / N.Vəlixanlı – Bakı: Elm və təhsil, – 2016 – s.333-343.

[3] Azərbaycan tarixi üzrə qaynaqlar. / S.S.Əliyarov və Y.M.Mahmudovun redaktəsilə – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, – 1989 – s.169-176.; Йакут ал-Хамави. Му'джам ал-булдан (сведения об Азербайджане). Хамдуллах Казвини. Нузхат ал-кулуб (материалы по Азербайджану). / Перевод с

Əbdürrəşid əl-Bakuvinin[6] verdiyi məlumatlar bölgənin orta əsr yaşayış yerlərinin, qalalarının tarixi-arxeoloji baxımdan tədqiqində mühüm əhəmiyyətə malikdir. Zəkəriyyə əl-Qəzvininin verdiyi məlumatlar bölgənin orta əsrlər dövrü təbii-coğrafi vəziyyətinin təsvirlərindən ibarətdir. Bu məlumatlarda Gəncə və onun ətraf bölgəsi haqqında faktlar öz əksini tapmışdır. Bunlardan başqa tədqiq etdiyimiz bölgənin orta əsr yaşayış yerləri və onların yerləşdiyi inzibati ərazilər, əhalinin sayı və dini etiqadı məsələləri, həmçinin əhalinin təsərrüfat həyatı və məşğuliyyəti ilə bağlı mühüm məlumatlar Osmanlı məmurları tərəfindən 1593-cü və 1727-ci illərdə tərtib edilmiş Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərlərində öz əksini tapmışdır[7]. Qeyd edək ki, tədqiqat mövzusunun mənbəşünaslıq bazasını göstərilən yazılı mənbələr və bölgədəki orta əsr abidələr və onlardan aşkar edilmiş arxeoloji materiallar təşkil edir.

Tədqiq etdiyimiz bölgədə arxeoloji qazıntıların aparılması, buradakı abidələrin öyrənilməsinə hələ XIX əsrin sonları-XX əsrin əvvəllərində başlanılmışdır. Sonrakı dövrlərdə də Daşkəsən-Göygöl bölgəsində arxeoloji qazıntılar davam etdirilmişdir. Aparılmış arxeoloji qazıntılar əsasən Tunc və Erkən Dəmir dövrü yaşayış yerləri və qəbir abidələrində aparılmışdır. Təsadüfi tapıntılar istisna olmaqla, Daşkəsən-Göygöl bölgəsində orta əsr abidələrində arxeoloji

---

арабского З.М.Буниятов / Йакут ал-Хамави., Хамдуллах Казвини – Баку: Элм, – 1983 – 68 с.

[4] Azərbaycan tarixi üzrə qaynaqlar. / İkinci nəşrin tərtibatçısı və redaktoru: tarix elmlər doktoru, professor, Əməkdar elm xadimi Süleyman Əliyarlı – Bakı: Çıraq, – 2007 – s.182-185.

[5] Киракос Гандзакеци. История Армении. / Перевод с древнеармянского, предисловие и комментарии Л.А.Ханларян. / Киракос Гандзакеци – Москва: Наука, – 1976 – 358 с.

[6] Əbdürrəşid əl-Bakuvi. Kitab təlxis əl-əsar və əcaib əl-məlik əl-qəhhar (Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri). / Əbdürrəşid əl-Bakuvi – Bakı: Şur, – 1992 – 176 s.

[7] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. / Ön söz, tərcümə, tərtib, qeyd və şərhlər H.Məmmədovundur. – Bakı: Şuşa nəşriyyatı, – 2000 – s.64-155.

qazıntılar aparılmamışdır. Buna görə də bölgənin orta əsr abidələri XX əsrin sonlarına kimi öyrənilməmiş olaraq qalmışdır. 1988-1989-cu illərdən etibarən Gəncəbasar bölgəsinin orta əsr abidələrinin arxeoloji tədqiqi arxeoloq A.M.Məmmədov tərəfindən həyata keçirilməyə başlanılmışdır. XX əsrin sonlarından etibarən A.M.Məmmədov Daşkəsən rayonu ərazisindəki orta əsr abidələrini qeydə almış, onlarda arxeoloji işlər həyata keçirmişdir. Daşkəsən-Göygöl bölgəsinin orta əsr abidələrinin arxeoloji baxımdan tədqiqində A.M.Məmmədovun xidmətləri vardır. Bu bölgəyə arxeoloji səfərlər etmiş tədqiqatçı bölgənin orta əsr dini abidələri, körpüləri, sənətkarlıq həyatı ilə bağlı müəyyən tədqiqat işləri görmüşdür.[8] 1994-2004-cü illərdə Gəncəbasar arxeoloji dəstəsi Kürəkçay hövzəsində arxeoloji tədqiqat işləri aparmışdır. Tədqiqat nəticəsində Göygöl rayonu ərazisində ilk orta əsrlər dövrünə aid Sərvərtəpə yaşayış yeri müəyyən edilmişdir.[9] 2008-ci ildən etibarən prof.A.M.Məmmədovun rəhbərliyi altında Gəncə arxeoloji

---

[8] Məmmədov A.M. Nizami əsrinin Gülüstan qalası./ A.M.Məmmədov – Bakı: Elm, – 1989 – 41 s.; Məmmədov A. Goranboy orta əsrlərdə. / A.Məmmədov., A.Məhərrəmov – Bakı: Elm, – 1990 – 150 s.; Məmmədov A.M. Gəncəbasarın orta əsr ticarət yolları haqqında. // – Bakı: Azərbaycan tarixinin problemləri (Məruzələr məcmuəsi), – 1992 – s.261-265.; Məmmədov A.M. Kürəkçay qalası. // ASU, "Azərbaycan tarixi problemləri üzrə məruzələr məcmuəsi", – Bakı: – 27-28 mart, – 1992 – s.3-6.; Məmmədov A.M. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi-arxeoloji tədqiqat). / A.M.Məmmədov – Bakı: Elm, – 1993 – 204 s.; Məmmədov A.M. Gürzalılar kəndində qəbirüstü daş heykəllər. // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası problemləri, – 1998.VI hissə, – s.4-5.; Məmmədov A.M. Gəncəbasarın Alban dövrü xristian abidələri. / A.M.Məmmədov – Bakı: Ağrıdağ, – 2000 – 56 s.; Məmmədov A.M. Qoşqarçay və Kürəkçay hövzəsinin tarixi-arxeoloji tədqiqi. / A.M.Məmmədov – Bakı: Ağrıdağ, – 2000 – 96 s.; Məmmədov A.M. Dəstəfur-Daşkəsən (tarixi-arxeoloji-etnoqrafik tədqiqat). / A.M.Məmmədov – Bakı: Elm, – 2000 – 62 s.; Məmmədov A.M., Nuriyev A.B. Əkiz qalalar. // – Bakı: Tarix və onun problemləri, – 2003. №3, – s.163-166.; Məmmədov A.M. Xarxaput (Meşəli) kəndində alban məbədi. // – Bakı: Tarix və onun problemləri, – 2003. №3, – s.157-159.

[9] Məmmədov A.M. Kürəkçay hövzəsində arxeoloji tədqiqatlar (1994-2004). // – Bakı: 2003-2004-cü illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları, – 2005 – s.73-75.

ekspedisiyası Gəncə ətrafı bölgələrdə tədqiqatlar aparmışdır. O cümlədən ekspedisiya 2008-2009-cu illərdə, 2010-cu ildə, 2011-ci ildə, 2012-ci ildə və 2013-cü ildə Daşkəsən, Göygöl və Goranboy rayonları ərazisindəki orta əsr abidələrinə arxeoloji səfərlər etmiş, abidələri qeydə almış, arxeoloji tədqiqat işləri həyata keçirmişdir[10]. Gəncə arxeoloji ekspedisiyası 2013-cü il 23 iyun-21 avqust tarixində Gəncə şəhəri və onun ətraf ərazilərində arxeoloji qazıntı və çöl-tədqiqat işlərini davam etdirmişdir. Arxeoloji ekspedisiya Göygöl rayonunun Balçılı kəndi ərazisindəki Qız qalasında ilkin tədqiqatlar aparmışdır. Ekspedisiya işlədiyi müddətdə Göygöl rayonunun Zurnabad qalasında da kəşfiyyat işləri aparmışdır. A.M.Məmmədovun rəhbərliyi altında müəllif də Daşkəsən rayonu ərazisindəki orta əsr abidələrində arxeoloji kəşfiyyat işlərində iştirak etmiş, müşahidələr aparmış, yerüstü materiallar toplamış, abidələrlə bağlı qeydlər götürmüşdür. Həmçinin Daşkəsən rayonu Tarix-Diyarşünaslıq muzeyində saxlanılan və bu bölgədə aşkar edilmiş orta əsr maddi mədəniyyət nümunələrinə baxış keçirmiş, onlarla bağlı qeydlərini aparmışdır. 1938-ci ildə Y.A.Paxomov İncəçay sahilindəki Gülüstan və Göygöl rayonundakı Zurnabad qalalarına arxeoloji səfər etmiş, qalalarda qısa müddətli arxeoloji tədqiqatlar aparmışdır[11].

Balçılı Qız qalası haqqında Z.Atakişiyev və A.Aslanovun[12] həmmüəllif olduğu və A.Ə.Mehdiyevanın[13] elmi məqalələrində və

---

[10] Məmmədov A.M. Qədim Gəncə (arxeoloji tədqiqatlar əsasında). / A.M.Məmmədov – Bakı: Təknur, – 2014 – s.96-157.

[11] Пахомов Е.А. Археологические экспедиции по районам Азерб. ССР. // – Баку: Изв. Азерб. ФАН СССР, – 1938, № 3. – с.31-37.

[12] Atakişiyev Z., Aslanov A. Gəncə Qız qalası. // – Bakı: Elm və həyat, – 1985. №10 – s.15-16.

[13] Mehdiyeva A.Ə. Azərbaycanda qız qalalarının tarixi. / A.Ə.Mehdiyeva – Bakı: Elm, – 2000 – 120 s.; Mehdiyeva A. Azərbaycanın Qərb bölgəsində yerləşən Qız qalaları. // Azerbaycan Milli İlmler Akademisi Milli Azerbaycan Tarih Muzesi, Almaniya Türklerin Dünyası Enstitüsü, Ağrı İbrahim Çeçen Üniversitesi, Secuk Üniversitesi Türk El Sanatları Araştırma ve Uygulama Merkezi Başkanlığı "VII. Uluslararası Türk Sanatı, Tarihi ve Fokloru Kongresi", – Bakü: – 11-15 Nisan – 2017, – s.145-150.

tədqiqatlardında bəhs olunmuşdur. Azərbaycanın orta əsr abidələrinin, o cümlədən də Alban xristian dini abidələrinin memarlığı məsələləri ilə bağlı G.H.Məmmədovanın elmi redaktorluğu və həmmüəllifliyi, tədqiqatçılardan S.X.Hacıyeva və Z.G.Məmmədovanın həmmüəllif olduqları Azərbaycan memarlıq tarixinə dair iki cildlik ümumiləşdirilmiş əsərdə[14] araşdırma və təhlillər tədqiq etdiyimiz bölgənin dini abidələrinin inşaat xüsusiyyətləri və memarlıq quruluşunun tədqiq edilməsində, müqayisəli təhlillərin aparılmasında əhəmiyyətə malikdir. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin orta əsr Alban xristian abidələrinin öyrənilməsində A.M.Məmmədov[15], M.C.Xəlilov[16], G.H.Məmmədovanın[17] əsərləri əhəmiyyət kəsb edir. A.M.Məmmədov Daşkəsən, Göygöl və Goranboy rayonları ərazisindəki Alban məbədlərində arxeoloji işlər aparmış, bu rayonların ərazisindəki məbələri qeydə almış, onların tarixi və inşa xüsusiyyətləri haqqında bəhs etmişdir. M.C.Xəlilov əsərlərində tarixi-arxeoloji tədqiqatlar əsasında Albaniyanın IV-X əsrlər yaşayış yerləri, dini abidələri tarixi-arxeoloji baxımdan tədqiq edilmişdir. Onun əsərlərində Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin abidələrinin tədqiqi ilə bağlı məsələlər yer almışdır. Albaniyanın xrsitian dini abidələrinin ilk funadamental tədqiqatçısı görkəmli arxeoloq R.B.Göyüşov olmuşdur. Onun uzun illər apardığı

---

[14]Məmmədova G.H., Hacıyeva S. Azərbaycan memarlıq tarixi. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı. [2 cilddə]. / G.H.Məmmədova., S.X.Hacıyeva – Bakı: Şərq-Qərb, – I cild – 2013 – 268 s.; Məmmədova G.H. Azərbaycan memarlıq tarixi. Orta əsrlər memarlığı (VIII-XIV əsrlər). [2 cilddə]. / G.H.Məmmədova., Z.G.Məmmədova – Bakı: Şərq-Qərb, – II cild – 2013 – 316 s.

[15]Məmmədov A.M. Gəncəbasarın Alban dövrü xristian abidələri. / A.M.Məmmədov – Bakı: Ağrıdağ, – 2000 – 56 s.

[16]Xəlilov M.C. Albaniyanın xristian abidələri (IV-X əsrlər). / M.C.Xəlilov – Bakı: Xəzər Universiteti nəşriyyatı, – 2011 – 344 s.; Xəlilov M.C. Albaniyanın qəbir abidələri (IV-X əsrlər). / M.C.Xəlilov – Bakı: Nafta-Press, – 2009 – 180 s.

[17] Мамедова Г.Г. Культовое зодчество Кавказская Албании (IV–XIV вв.). / Г.Г.Мамедова – Баку: Элм, – 1997 – 248 с.; Мамедова Г.Г. Зодчество Кавказской Албании. / Г.Г.Мамедова – Баку: Чашыоглу, – 2004 – 224 с.

tədqiqatlarında Albaniyada xrsitianlığın yayaılması, onun dövlət dininə çevrilməsi və dini abidələrin tarixi-arxeoloji tədqiqi məsələləri öz əksini tapmışdır[18]. Albaniyanın xristian məbədlərinin inşa xüsusiyyətləri, tarixi memarlıq quruluşu və inşa tarixi məsələləri G.H.Məmmədovanın tədqiqatlarında yer almışdır. G.H.Məmmədova Daşkəsən məbədi haqqında bəhs etmişdir. Albaniyanın xristian abidələrini tədqiq edən N.Ə.Alışovun[19] tezisində Daşkəsən bölgəsinin alban xrsitian məbədləri haqqında qısa məlumatlar öz əksini tapmışdır. Bundan başqa onun tədqiqatlarında[20] arxeoloji materiallar əsasında xristian məbədlər tədqiq edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini ilk orta, klassik və son əsrlər dövründə Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində yaşayış yerlərinin yaranma, inkişaf və tənəzzül səbəbləri, əhalinin təsərrüfat həyatı, dini görüşləri, sənətkarlığın inkişaf səviyyəsi, memarlıq abidələri, iqtisadi-ticarət və mədəni əlaqələrinin tədqiqi təşkil edir. Bütövlükdə orta əsrlər dövründə Azərbaycanın yaşayış məskənləri içərisində Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin (müasir Daşkəsən-Göygöl rayonları və Goranboy rayonunun dağlıq kəndlərinin ərazisi) rolunu müəyyənləşdirmək, orta əsrlərdə təsərrüfatın bütün sahələrində baş

---

[18] Геюшев Р.Б. Христианство в Кавказской Албании. / Р.Б.Геюшев – Баку: Элм, – 1984 – 192 с.

[19] Alışov N.Ə. Daşkəsən rayonunun Qafqaz Albaniyasına məxsus xristian abidələri. // AMEA-nın 70 illiyinə həsr edilmiş “Akademik elm həftəliyi-2015 Beynəlxalq multidissiplinar forum”, – Bakı: – 02-04 noyabr 2015-ci il – tezislər kitabı, – s.421-422.

[20] Alışov N.Ə. Qafqaz Albaniyasının xristian abidələrinin tədqiqi Azərbaycan tarixşünaslığında. // – Bakı: Tarix və onun problemləri, – 2009. №1-2 – s.436-440.; Alışov N.Ə. Azərbaycanın Respublikasının qərb bölgəsinin xristian abidələri və onların öyrənilməsinin əhəmiyyəti. // “Antik və orta əsr Azərbaycan səhərləri: arxeoloji irs, tarix və memarlığı”, – Şəmkir-Gədəbəy: 27-28 oktyabr 2010 – Beynəlxalq elmi konfransın materialları – Bakı: Çaşıoğlu, – 2012 – s. 221-225.; Alışov N.Ə. Qafqaz Albaniyasının IV-VIII əsr kilsələrinin Azərbaycanın maddi və mənəvi mədəniyyətində yeri. // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2012 – s.248-261.; Alışov N.Ə. Qafqaz Albaniyasının trapesvari plan qruluşlu kilsələri. // – Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, – 2014. №2 – s.121-130.

vermiş yenilikləri aşkarlamaq tədqiqatın mühüm vəzifələrindəndir. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin orta əsr yaşayış məskənlərinin Azərbaycanın digər yaşayış yerləri ilə əlaqələrinin öyrənilməsi tədqiqatda ayrıca yer almışdır. Tədqiq etdiyimiz bölgənin orta əsr yaşayış yerləri, ticarət əlaqələri haqqında mənbə məlumatlarının nəticələri, onun müqayisəli təhlili və yekun nəticəyə gəlinməsi də tədqiqat işində qarşıya qoyulan məqsədlərdəndir.

**Tədqiqat metodları.** Dissertasiya işi yazılarkən Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisindəki orta əsrlər dövrü abidələrində aparılmış arxeoloji tədqiqatlar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqlarının öyərnilməsində müasir arxeologiya elmində qəbul edilmiş tipoloji təhlil metodu əsas götürülmüşdür. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində aşkar edilmiş yaşayış yerlərinin və digər arxeoloji materialların mənbələrdəki məlumatlar və elmi ədəbiyyatdakı elmi nəticələrlə müqayisəli təhlili metodundan da istifadə edilmişdir.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin orta əsrlər dövrü maddi mədəniyyəti ilə Azərbaycanın həmdövr digər abidələrdən əldə olunmuş maddi mədəniyyət nümunələri arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsində müqayisəli analiz metodundan istifadə işin səmərəliliyini artırmışdır.

Bütün bunlardan başqa, tədqiq olunan mövzunun araşdırılmasında elmi obyektivlik, problem üzrə fakt və məlumatların kompleks şəkildə araşdırmaya cəlb edilməsi, tədqiqat dövrünə qədərki vəziyyət, tarixi yanaşma, müqayisəli təhlil, tənqidi analitik üsul, tarixi gerçəkliklərin araşdırılmasında prosesləri doğuran səbəb və nəticələrin əlaqəsi metodundan geniş istifadə edilmişdir. Həmçinin son onilliklər ərzində Azərbaycanda aparılmış tarixi-arxeoloji tədqiqatların son nailiyyətləri nəzərə alınmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin orta əsrlər dövrü tarixi coğrafiyasına dair məsələləri araşdırmaq və dəqiqləşdirmək; Bölgənin Azərbaycanın orta əsrlər dövründə iqtisadi həyatında yerini müəyyənləşdirmək; Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz

ərazisindəki orta əsr yaşayış yerlərinin tarixi-arxeoloji tədqiqini həyata keçirmək; Buradakı orta əsr dini abidələrini kompleks şəkildə tədqiq etmək; Arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələrini tədqiq etmək; Bölgənin orta əsrlər dövründə Azərbaycanın digər bölgələri ilə iqtisadi və mədəni əlaqələrini araşdırmaq;

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin orta əsrlər dövrü abidələrinin öyrənilməsinə həsr edilmiş ilk elmi tədqiqat işidir. Tədqiqatda Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin orta əsr abidələri qruplaşdırılaraq kompleks şəkildə müqayisəli təhlil edilmiş, bölgənin ticarət əlaqələri, dini abidələri, sənətkarlıq və təsərrüfatın inkişaf xüsusiyyətləri aydınlaşdırılmışdır. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində müxtəlif vaxtlarda ayrı-ayrı tədqiqatçılar tərəfindən arxeoloji işlər aparılsa da onlar kompleks şəkildə ilk dəfə ümumiləşdirilmişdir.

Elmi yeniliklər əsasında bölgədə ilk orta əsrlər, klassik və son orta əsrlər dövrünün özündən əvvəlki dövrlərə aid ənənələr əsasında inkişaf etməsinə və onun yerli zəminlə bağlı olmasına xüsusi diqqət yetirilmiş və yeni elmi dəlillərlə möhkəmləndirilmişdir.

Tədqiqat işinin mühüm elmi yeniliyi bölgənin orta əsrlər dövrü tarixi coğrafiyasının, bölgədəki bəzi dini abidələrin, orta əsr yaşayış yerlərinin ilk dəfə olaraq tarixi-arxeoloji tədqiqinin dissertasiyada öz əksini tapmasıdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş orta əsrlər dövrü maddi mədəniyyəti ilk dəfədir ki, geniş planda tədqiq olunmuş, kompleks şəkildə xarakterizə edilmişdir. Ayı-ayrı yaşayış yerləri, onlara məxsus qəbir abidələri, aşkar edilmiş sənətkarlıq nümunələri, ticarət əlaqələri araşdırılaraq bölgənin inkişafındakı xüsusiyyətlər aydınlaşdırılmışdır. Həmçinin orta əsrlərdə Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində təsərrüfatın inkişaf və tənəzzül səbəbləri müəyyənləşdirilmişdir. Gələcəkdə aparılacaq tədqiqatların həyata keçirilməsində, digər bölgələrin, xüsusilə də Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz

ərazisinin qonuşuluğundakı orta əsr abidələrinin tədqiqi prosesində bu tədqiqat işi nəzəri əhəmiyyət daşıyacaqdır. Həmçinin bəhs olunan bölgənin orta əsr abidələrinin, təsərrüfat həyatının kompleks şəkildə ilk dəfə tədqiqata cəlb edildiyi üçün bu tədqiqat işi ümumiləşdirilmiş əsərlərin, dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında nəzəri və praktiki əhəmiyyətə malikdir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi mündəricat, giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından, ixtisar edilmiş sözlərdən və şəkillərdən ibarətdir. Dissertasiyada araşdırılan problemlər üzrə iddiaçının respublikada və xaricdə nəşr edilən elmi jurnallarda, eləcə də respublika və beynəlxalq elmi konfrans materiallarında on bir elmi məqaləsi dərc edilmişdir.

Dissertasiyanın mövzusu və tədqiqi bu istiqamətdə gələcəkdə aparılacaq araşdırmaların miqyasının genişlənməsinə, bu sahədə tədqiqatların yeni istiqamətlərinin yaranmasına şərait yaradacaqdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyanın həcmi giriş hissəsi 20.782, I fəsil 117.316, II fəsil 38.910, III fəsil 70.775, nəticə hissəsi isə 8.076 işarədən ibarət olmaqla, cəmi 255.859 işarə sayı təşkil etməklə 144 səhifədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisindəki orta əsr abidələrinin öyrənilməsinin aktuallığı əsaslandırılmış, mövzunun öyrənilmə dərəcəsindən bəhs edilmiş, elmi-tədqiqat işinin məqsəd və vəzifələri, tədqiqat metodu, müdafiəyə çıxarılan məsələlər, mövzunun elmi yeniliyi, aprobasiyası, onun nəzəri və praktiki əhəmiyyəti şərh edilmişdir.

**"Yaşayış yerləri"** adlanan birinci fəsil qurluşuna görə beş paraqrafa bölünmüşdür. Birinci fəsilin **"Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin təbii-coğrafi şəraiti və tarixi coğrafiyası"** adlı birinci paraqrafında Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin təbii-coğrafi şəraiti nəzərdən keçirilmiş, bu bölgənin təbii resurslarının orta əsrlər dövründə bölgənin təsərrüfat həyatına təsiri məsələləri araşdırılmışdır. Eyni zamanda bu paraqrafda bölgənin orta əsrlər dövrü tarixi coğrafiyası məsələləri də tədqiq edilmişdir. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin ilk orta, klassik və son orta əsrlər dövrü tarixi coğrafiyası məslələrinə yazılı mənbə məlumatlarına istinad edilməklə aydınlıq gətirilmişdir. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisi ilk orta və orta əsrlər dövründə Gəncə şəhərinin mərkəz olduğu və ya yerləşdiyi inizbati bölgənin, tarixi-etnoqrafik ərazinin tərkibində olmuşdur. İlk orta əsrlər dövründə tədqiq etdiyimiz bölgə (əsasən müasir Daşkəsən və Göygöl rayonlarının ərazisi, o cümlədən də Goranboy rayonunun dağlıq hissəsi) Qafqaz Albaniyasının Uti əyalətinin hüdudlarına daxil olmuşdur. İlk orta əsrlər dövründə Gəncə şəhəri və onun ətrafı, o cümlədən müasir Daşkəsən-Göygöl bölgəsi Uti əyalətinin Sakasena vilayətinin ərazisinə daxil olmuşdur. Sakasena vilayəti Kür çayı ilə Arsak vilayətinin arasında yerləşirdi.[21]

[21] Azərbaycan tarixi atlası. / Y.M.Mahmudovun rəhbərliyi və redaktəsi ilə, məsul redaktor Ə.M.Qasımov – Bakı: Bakı Kartoqrafiya Fabriki, – 2007 – s.15; Piriyev V.Z.Azərbaycanın tarixi-siyasi coğrafiyası. / V.Z.Piriyev – Bakı: Müəllim, – 2006 – s.40.

Erkən ərəb müəllifləri Arran ərazisinə tabe etdikləri vilayətlər sırasında alban vilayət və nahiyələri Sakasenanın, Utinin, Kambisenanın, Sisakan-Sünikin və s. adlarını çəkirlər.[22] Bölgə 955-971-ci illərdə Salarilər dövlətinin Arran vilayətinin mərkəzi Gəncə şəhəri ilə birlikdə Salarilərin, 971-1065-ci illərdə mövcud olmuş Şəddadilərin Gəncə əmirliyinin ərazisinə daxil olmuşdur. Azərbaycan Səlcuqların hakimiyyəti altına düşdükdən sonra Gəncə Arranın inzibati mərkəzi olmuş, Səlcuq sultanlarının-canişinlərin paytaxtı olmuş, Səlcuqlu əmirlərinin iqamətgahları burada yerləşmişdir. Bu dövrdə Gəncə nahiyələri ilə birlikdə iqta kimi verilirdi. Bu məlumatdan aydın olur ki, Gəncə ətrafı ərazilər inzibati cəhətdən nahiyələrə bölünmüşdür. Lakin nahiyələrin adları və əhatə etdikləri ərazi haqqında məlumat yoxdur. Şübhəsiz ki, tədqiq etdiyimiz bölgə inzibati cəhətdən nahiyə olaraq Gəncənin tabeliyində olmuşdur.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisi XIII-XIV əsrlərdə Hülakular dövlətinin inzibati ərazisinə daxil olan Aran əyalətinin tərkibində idi. XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətləri dövründə ölkə Azərbaycan, Arran, Muğan, Şirvan, Şəki əyalətlərinə ayrılırdı. Həmin əyalətlərin tərkibində mahallar vardı. Arranın mahallarından biri Gəncə idi.[23] Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisi bu dövrdə Gəncə mahalının tərkibinə daxil olmuşdur. Azərbaycan Səfəvilər dövləti dövründə Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisi Qarabağ bəylərbəyliyinin hüdadlarına daxil idi. 1593-cü və 1727-ci illərdə tərtib olunmuş Gəncə-Qarabağ əyalətinin dəftərlərində əyalətin ətraflı təsviri verilmişdir. Onları müqayisə etdikdə XVI əsrin sonu – XVIII əsrin əvvəllərində Gəncə-Qarabağ əyalətinin ərazisinin əsaslı

[22] Azərbaycan tarixi atlası. / Y.M.Mahmudovun rəhbərliyi və redaktəsi ilə, məsul redaktor Ə.M.Qasımov – Bakı: Bakı Kartoqrafiya Fabriki, – 2007 – s.16; Piriyev V.Z.Azərbaycanın tarixi-siyasi coğrafiyası. / V.Z.Piriyev – Bakı: Müəllim, – 2006 – s.46-48.

[23] Piriyev V.Z.Azərbaycanın tarixi-siyasi coğrafiyası. / V.Z.Piriyev – Bakı: Müəllim, – 2006 – s.65-66.

dəyişikliyə uğramadığı bəlli olur.[24] 1593-cü ilə aid dəftərlərdən məlum olur ki, Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisi, müasir Daşkəsən-Göygöl bölgəsi Gəncə-Qarabağ əyalətinin Gəncə sancağının Dağlıq Sunqur, Dağlıq Gəncə və Kürəkbasan nahiyələrinin ərazisi olmuşdur.[25] Dağlıq Sunqur nahiyəsi əsasən müasir Daşkəsən rayonun ərazisini və qismən də Göygöl rayonunun ərazisini əhatə etmişdir. Dağlıq Gəncə nahiyəsinin ərazisinə isə Daşkəsən rayonunun bir hissəsi, Göygöl rayonunun ərazisinin bir hissəsi, qismən də müasir Goranboy rayonunun dağlıq hissəsinin Göygöl rayonunun kəndlərinə yaxın olan bölgəsi daxil idi.

1727-ci il dəftərlərindən isə aydın olur ki, bəhs etdiyimiz bölgə Gəncə-Qarabağ əyalətinin Gəncə qəzasının (sancağının) Sunqurabad və Böyük Kürəkbasan nahiyələrini təşkil etmişdir[26]. Sunqurabad nahiyəsi əsasən müasir Daşkəsən rayonunun ərazisini və qismən də Göygöl rayonunun ərazisini əhatə etmişdir. Böyük Kürəkbasan nahiyəsinə isə müasir Göygöl rayonunun dağlıq ərazisi və Goranboy rayonunun dağlıq hissəsi daxil idi. Göygöl və Daşkəsən rayonlarının bir hissəsi isə Gəncə qəzasının Gəncəbasan nahiyəsinə daxil olmuşdur.

Birinci fəsilin **“Kəndtipli yaşayış yerləri”** adlı ikinci paraqrafında bölgənin orta əsr kəndtipli yaşayış yerləri tədqiq edilmişdir. Tədqiq edilən ərazinin arxeloji abidələri içərisində kənd tipli yaşayış yerləri xüsusi yer tutur. Belə yaşayış yerləri içərisində Yuxtugar, Nağara dağı, Yurdtəpə və s, abidələr tədqiqat obyekti kimi

---

[24] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. / Ön söz, tərcümə, tərtib, qeyd və şərhlər H.Məmmədovundur. – Bakı: Şuşa nəşriyyatı, – 2000 – s.4-7.

[25] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. / Ön söz, tərcümə, tərtib, qeyd və şərhlər H.Məmmədovundur. – Bakı: Şuşa nəşriyyatı, – 2000 – s.5; Piriyev V.Z.Azərbaycanın tarixi-siyasi coğrafiyası. / V.Z.Piriyev – Bakı: Müəllim, – 2006 – s.73.

[26] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. / Ön söz, tərcümə, tərtib, qeyd və şərhlər H.Məmmədovundur. – Bakı: Şuşa nəşriyyatı, – 2000 – s.6; Piriyev V.Z.Azərbaycanın tarixi-siyasi coğrafiyası. / V.Z.Piriyev – Bakı: Müəllim, – 2006 – s.74.

xüsusuilə diqqəti cəlb edirlər. Kənd tipli yaşayış yerləri haqqında tarixi arxeoloji ədəbiyyatda məlumat azdır, bunu nəzərə alaraq, arxeoloji qazıntı materiallarından geniş istifadə edilmişdir.

Daşkəsən bölgəsinin ilk orta və orta əsr kənd tipli yaşayış yerlərindən biri də Quşçu kəndi olmuşdur. Burada qeydə alınmış abidlər, arxeoloji materiallar, xüsusilə də Alban xrsitian məbədi Quşçu kəndi ərazisndə bəhs etdiyimiz dövrdə sız məskunlaşmanın olmasından xəbər verir. Qədim tarixə malik Əmirvar kəndi yaxınlığında Yuxtigar yaşayış yerinin tarixi III – VIII əsrlərə aiddir. Qoşqarçay hövzəsinin ən möhtəşəm ilk orta əsr yaşayış yeri hesab olunan bu ərazinin uzunluğu şərqdən qərbə doğru təxminən 220 metr, eni şimal-cənub istiqamətində 150-170 metr olub, sahəsi 0,6 hektardır. O, ətraf ərazilərdən 4-8 metr yüksəklikdə yerləşir. Yuxtigar yaşayış yerində aparılan arxeoloji qazıntılar burada iki mədəni təbəqənin olduğunu göstərir. Onların ümumi qalınlığı 3 metrdir. Buradakı birinci mədəni təbəqə III-V əsrləri, birinci mədəni təbəqənin xarabalıqları üzərində yerləşən II mədəni təbəqə isə VI-VIII əsrləri əhatə edir.

Albaniya ərazisinin ərəblər tərəfindən tutulması ilə əlaqədar yaşayış yerlərinin dağılması, çayların öz yatağının dəyişməsi, ticarət yollarının sıradan çıxması ilə əlaqədar Yuxtigar yaşayış yerində həyat kəsilmiş, ərazinin xəritəsində dəyişiklik olmuş, orta əsrlərdə o, Yurdtəpə yaşayış məskəni ilə əvəz olunmuşdur[27].

Yuxtigar yaşayış yerinin 0,6 hektar olduğu halda Yurdtəpə yaşayış yerinin sahəsi 0,8 hektardır. Əhmədli kəndi yaxınlığında Yurdtəpə yaşayış yeri, Yuxtigar yaşayış yerinin davamı olub IX-XVI əsrlərə aiddir. Daşkəsən rayonunun ərazisindəki orta əsr kənd yaşayış yerlərindən biri də Əhmədli kəndidir. Əhmədli kəndidndə qəbirlərin bir qisminin orta əsrlər aid olduğu qəbirstanlıqdakı qəbir abidələri, türbə, orta əsr yaşayış yerinin qalıqları və izləri burada ilk orta əsrlər dövrü daxil olmaqla orta əslər dövründə kənd tipli yaşayış

[27]Məmmədov A.M. Dəstəfur-Daşkəsən (tarixi-arxeoloji-etnoqrafik tədqiqat). / A.M.Məmmədov – Bakı: Elm, – 2000 – s.18.

məntəqəsinin olmasından, sıx məskunlaşmadan və davamlı yaşayışın olmasından xəbər verir.

Yurdtəpə yaşayış yeri ətraf ərazilərdən təxminən iki-üç metr hündür olub, hər tərəfdən yararsız torpaq sahələri daş-kəsəklə əhatə olunmuşdur. Yaşayış yerinin eni 50 metr, uzunluğu şimal-cənub istiqamətində 50 metrdir. 80-ci illərdə 5x5 metr ölçülü sahədə aparılan arxeoloji qazıntı işləri zamanı xeyli miqdarda osteoloji və ixtioloji qalıqlar, bir təsərrüfat quyusu aşkar edilmişdir.Yurdtəpə yaşayış yerinin ümumi qalınlığı 2,7 metr olan üç mədəni təbəqəsi vardır. Yaşayış yerinin ən qədim dövrə aid mədəni təbəqəsi 1,5 metr qalınlığında olub, eramızın VIII-IX əsrlərinə aiddir. İkinci mədəni təbəqə 1,4 metr qalınlığında olub IX-XI əsrləri əhatə edir, üst mədəni təbəqə isə 0,5 metr qalınlığında olub XI-XVI əsrləri əhatə edir.

Qabaqtəpə ilk orta əsr yaşayış yeri, Qoşqar çayın ətəyində yerləşir. Yaşayış yerinin eni şimaldan cənuba doğru 50 metr, uzunluğu şərq-qərb istiqamətində 165 metrdir, sahəsi 1 hektara yaxındır. Burada aparılan arxeoloji qazıntılar zamanı ümumi dərinliyi 2,5 metr olan iki mədəni təbəqə aşkar edilmişdir. Birinci mədəni təbəqənin qalınlığı 1,5 metr olub III-VIII əsrləri, II mədəni təbəqə 1 metr qalınlığında olub IX-XIII əsrləri əhatə edir.

Daşkəsən bölgəsində qədim yaşayış məskənlərindən biri də Xoşbulaqdır. İlk orta əsrlər dövründə aid dini abidələrin, xaç daşlarının olması burada ilk orta əsrlər dövründə yaşayışın mövcud olmasından xəbər verir. Sonrakı dövrlərdə də burada yaşayış davamlı olmuş, inkişaf etmiş orta əsrlər dövründə də burada kənd tipli yaşayış məskənləri mövcud olmuşdur. Bunu buradakı türbələr də bir daha təsdiq edir.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin Goranboy rayonu hissəsində, buranın dağlıq ərazisindəki mövcud məbələr, qəbir abidələri, yaşayış yerlərinin qalıqları Meşəli (Xarxaput), Yuxarı Ağcakənd, Buzluq, Qaraçinar, Börü, Todan, Mənəş, Erkəc kəndlərində hələ ilk orta əsrlər dövründə kəndtipli yaşayış yerlərinin olduğunu göstərir. Bu kəndlərin əksəriyyətində, onların yaxınlığında V-VIII əsrlərdə inşa olunmuş Alban məbədləri burada ilk orta əsrlərdə məskunlaşmanı göstərən faktlardandır. Bu

bölgənin abidələri eramızın I əsrindən XVII-XVIII əsrlərinə qədər böyük bir dövrü əhatə edir.[28] Bu dövrdə, başqa sözlə bütövlükdə orta əsrlər dövründə bu ərazidə davamlı yaşayış olmuş, kəndtipli yaşayış məntəqələri mövcud olmuşdur.

İnkişaf etmiş və son orta əsrlər dövründə, xüsusilə də XVI-XVIII əsrlərdə bölgədə xeyli kənd tipli yaşayış məntəqələri vardır. XVI-XVIII əsrlərdə Daşkəsən və Göygöl rayonlarının Gəncə şəhəri istiqamətindəki ərazisində, başqa sözlə, Gəncə şəhərinin ətrafında tədqiq etdyimiz bölgədə çoxlu sayda kəndlər mövcud olmuşdur. Osmanlı dəftərlərində Kilsə, Ərəbli, Qızılqaya, Cuket, Dinareşin, İmamlı, Köhnəşəhər məzrəsi, Molla Cəlil kəndlərinin adları çəkilir.[29] Bunlardan Molla Cəlilli və Qızılqayalı kəndləri hal-hazırda da mövcuddur və Göygöl rayonunun inazbati ərazisində yerləşir. Hazırda Qızılqaya, Köhnəşəhər adlı yerlərdə yaşayış olmasa da, bu yerlər Gəncə şəhərinin yaxınlığında yerləşir. 1751-ci ildə Gəncə yaxınlığında baş vermiş "Qızılqaya xəyanəti" hadisəsi məhz haqqında bəhs etdiyimiz Qızılqaya adlı yerdə baş vermişdir. Gəncəçayının və müasir Gəncə şəhərinin yaxınlığında yerləşən Köhnəşəhər adlı yer haqqında yerli əhali arasında rəvayət xarakterli fikirlər vardır. Rəvayətə görə burada qədim şəhər yerləşmişdir. Təsadüfi deyildi ki, qədim Gəncə şəhərinin yerdəyişmələri ilə bağlı araşdırmalarda Köhnəşəhər adlı yerdən də bəhs edilir.

Yazılı mənbədə adı çəkilən kəndlərdən biri də Yenikənddir. Göstərilir ki, bu kəndin əkin yeri olmamışdır, 25 üzüm bağları vardır. Müasir Daşkəsən rayonu ərazisinə daxil ərazidə XVI-XVIII əsrlərdə Qaftəpə, Hastin, Əmiryar (indiki Əmirvar), Yuxarı Bayan, Aşağı Bayan, Quşçu, Şadaq, Çovdar, Afuca, Yenicə, Bəhşik, Vəng, Nükzər, Quytul, Savur, Zənzəhal, Daşkəsən, Basil, Xorxut, Hadil, Çanaqçı, Seyid və s. kəndlərin olması haqqında Osmanlı vergi dəftərlərində məlumatlar vardır[30]. Orta əsrlər dövrünün məşhur kənd

---

[28] Hacıyev G.O. Goranboy abidələri 2500 illik tariximizə şahidlik edir. // Xalq qəzeti – 2009, 12 mart, – s.5; 15 mart, – s.6

[29] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. / Ön söz, tərcümə, tərtib, qeyd və şərhlər H.Məmmədovundur. – Bakı: Şuşa nəşriyyatı, – 2000 – s. 30-31, s.39, s.52.

[30] Yenə orada, s. 64-72.

tipli yaşayış yerlərindən biri də Bayan kəndidir. Osmanlı dəfərlərində Yuxarı və Aşağı Bayan kəndlərindən bəhs olunmuşdur. Göstərilir ki, Aşağı Bayan kəndində əhali yaşamır. XVI-XVIII əsrlərdə Daşkəsən-Göygöl bölgəsində mövcud olmuş kəndlərin siyahısnda Sunqurabad, Ballıca, Gedəmiş, Çanaqçı, Mirzik, Murut, Hadil, Xorxut, Mahlı, Dərəbəyli adlı çəkilir[31]. Bu kəndlərin bir qismi Daşkəsən, bir qismi isə müasir Göygöl rayonu ərazisində yerləşməsi şübhəsizdir. Hal-hazırda Göygöl rayonunun Mirzik və Murut kəndləri mövcuddur. Vergi dəftərlərində Todan, Küşk (indiki Köşkü kəndi), Çaykənd, Azad, Hacıkənd, Toğanabad, Yayla, Bayxoş, Zoğallı kəndləri xatırlanmışdır. Yazılı mənbədə xatırlanan bu kəndlərdən Çaykənd, Azad, Toğana, Todan, Hacıkənd, Küşk (Köşkü) hal-hazırda da mövculuğunu saxlayır və bu kəndlər Göygöl rayonunun inzibati ərazisinə daxildir. Beləliklə, Osmanlı vergi dəfətlərindəki məlumatlardan bir daha aydın olur ki, XVI-XVIII əsrlərdə Daşkəsən-Göygöl bölgəsində xeyli kənd tipli yaşayış məntəqələri vardır. Belə hesab etmək olar ki, bu kəndlər vergi dəftərlərinin tərtib edildiyi XVI əsrdə deyil, daha əvvəlki dövrlərdən etibarən mövcud olmuşdur ki, həmin kəndlərdə yaşayış sonrakı əsrlərdə, başqa sözlə Osmanlı vergi dəftərlərinin tərtib edildiyi XVI-XVIII əsrlərdə və daha sonrakı dövrdə də davam etmişdir.

Tədqiq etdiyimiz və öyrəndiymiz dövrdə Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin (yəni Daşkəsən, Göygöl rayonları və Goranboy rayonunun dağlıq hissəsinin) orta əsrlər dövründə kəndtipli yaşayış yerlərinin əhalisinin başlıca təsərrüfat sahələri maldarlıq, əkinçilik və arıçılıq olmuşdur. Bu bölgə təbii-coğrafi şəraitinə görə əkinçilik dağlıq hissədə qismən, dağətəyi ərazilərdə isə daha geniş təsərrüfat sahəsi olmuşdur. Ümumiyyətlə, bölgədə dəmyə əkinçilik üstünlük təşkil etmişdir.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin əhalisinin təsərrüfat həyatında maldarlıq mühüm yer tutmuşdur. Ərazinin yerləşdiyi təbii şərait onun həm dağlıq, həm də dağətəyi ərazilər burada maldarlığı inkişaf etdirməyə imkan vermişdir.

[31] Yenə orada, s. 73-78.

Bölgənin ilk orta və orta əsr yaşayış yerlərində əldə edilmiş osteoloji qalıqlar burada iri və xırda buynuzlu heyvandarlığın təsərrüfat sahəsi kimi geniş yayıldığını göstərir.

Daşkəsən-Göygöl bölgəsinin orta əsr kəndtipli yaşayış yerlərində arıçılığın mühüm təsərrüfat sahələrindən biri olmasını, kənd əhalisinin məşğuliyyət sahələrindən biri olmasını yazılı mənbələr də təsdiq edir. Belə ki, Gəncə-Qarabağ əyalətinin əksini tapdığı 1527-ci ildə tərtib olunmuş Osmanlı dəftərlərindən məlum olur ki, Daşkəsən-Göygöl bölgəsinin kəndləri arıçılıqla bağlı olaraq "bal üşrü" adlı vergi vermişlər. Azərbaycanın yerli arı növü Qabaqtəpə arısıdır ki, onun da vətəni Daşkəsənin eyni adlı kəndidir.

Birinci fəsilin **"Şəhərtipli yaşayış yerləri"** adlı üçüncü paraqrafında bölgənin şəhərtipli yaşayış yerləri nəzərdən keçirilmişdir. İlk orta və orta əsr şəhərtipli yaşayış yerlərindən biri də Dəstəfur kəndi ərazisində qeydə alınmışdır. Dəstəfur orta əsr şəhərtipli yaşayış yeri Dəstəfur kəndi ərazisində, kəndin girəcəyindən təxminən bir km cənub-qərbində yerləşən buradakı məbədin yaxınlığındakı "Eynal taxti" adlı ərazidə, "Nazik su" adlı dərənin sağ və sol hissəsində yerləşir. İlk orta əsr yaşayış yerinin qalıqları "Dərin dərə"nin sağında, orta əsr yaşayış yeri isə onun solunda yerləşir. Dəstəfur ilk orta əslər yaşayış yeri III-VIII əsrlərə aid olub, sahəsi 1,5 hektar, onun davamı orta əsr yaşayış yeri sahəsi isə 2,3-2,5 hektar olub, IX-XV əsrləri əhatə edir. Burada həm ilk orta əsrlər dövrünə, həm də orta əsrlər dövrünə aid qəbirstanlıq mövcuddur[32]. Dəstəfur orta əsr şəhərtipli yaşayış yerində Gəncə çayı üzərində uzunluğu 15 metr, eni 3,5 metr olan XII əsrə aid körpü vardır[33].

Qoşqarçay və Kürəkçay hövzəsinin ilk orta əsr abidələrində, yaşayış yerlərində aparılan arxeoloji tədqiqat işləri zamanı burada orta və kiçik həcmli təsərrüfat küpləri, kuzələr, sərniclər, vedrələr, ləyənlər, sudanlar, qazanlar, tayqulplar, boşqablar, üstünə alban əlifbası ilə yazı həkk edilmiş və saya səthdə rəsmlərlə doldurulmuş şamdanlar, kirəmidlər və s. də aşkar edilmişdir. İnkişaf etmiş orta

---

[32] Məmmədov A.M. Dəstəfur-Daşkəsən (tarixi-arxeoloji-etnoqrafik tədqiqat). / A.M.Məmmədov – Bakı: Elm, – 2000 – s.24-25.
[33] Yenə orada, s.21.

əsrlər dövrünün dulus qabları əvvəlki dövr qabları ilə müqayisədə çox yaxşı bişirilmişdir ki, bu da o dövr ustalarının böyük peşəkarlığından xəbər verir və ərazidə dulusçuluq sənətinin ən yüksək mərhələyə qalxdığını göstərir.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin tədqiq etdiyimiz dövrdə yaşayış yerlərində, o cümlədən də şəhərtipli yaşayış yerində sənət sahələri içərisində özünəməxsus yer tutan metalişləmə sənətindən buranın orta əsr yaşayış yerlərindən aşkar edilmiş arxeoloji materiallar əsasında bəhs edilmişdir. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisi (xüsusilə indiki Daşkəsən ərazisi) özünün təbi isərvətləri və faydalı qazıntıları ilə zəngin bir ərazi kimi tanınmışdır. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində aparılan arxeoloji qazıntılar və geoloji tədqiqatların nəticələri göstərir ki, hələ orta əsrlərdə ərazidəki filiz yataqlarından səmərəli istifadə edilmiş, əldə olunan metal filizləri imkan və şəraitdən asılı olaraq ya mədənlərin yanında, bəzi hallarda isə Gəncə şəhərində emal edilmişdir.

Bölgənin ilk orta və inkişaf etmiş və son orta əsr yaşayış yerlərində, abidələrində arxeoloji axtarışlar və tədqiqat işləri zamanı aşkar edilmiş şüşə məmulatı tədqiq edilmişdir. Belə şüşə nümunələri çox zaman təsərrüfat işləri zamanı yerli əhali tərəfindən daha çox aşkar edilmişdir. Daşkəsən torpağı şüşənin ərintisinə müxtəlif rənglər vermək üçün lazım olan elementlərin, xüsusilə kobalt, mis, dəmir, qızıl, gümüş, sürmə, əqiq və s. mədənlərlə zəngin olmuşdur ki, bu da istehsala kömək edən əsas amillərdəndir. Arxeoloji kəşfiyyat işləri zamanı əldə edilən çıxdaşlar burada yerli şəraitdə şüşə istehsalı olduğunu göstərir. Qafqaz Albaniyasının şüşə məmulatı və istesalını tədqiq etmiş görkəmli arxeoloq A.B.Nuriyev göstərir ki, şüşə qabların istehsal mərkəzi olan Yaxın Şərq şəhərlərinə şüşə qabların boyanmasında istifadə edilən kobalt Azərbaycandan, indiki Daşkəsəndən aparılmışdır.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində orta əsrlər dövründə mövcud olmuş elə sənət və peşə sahələri vardır ki, onlar haqqında arxeoloji material çox azdır. Buna daşişləmə,

ağacişləmə, sümükişləmə, toxuculuq, boyaqçılıq, dəri emalı və s. sənət və peşə sahələrini misal göstərmək olar.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin zəngin təbiətinin səxavəti bu bölgədə göstərilən sənət və peşə sahələrinin inkişaf etməsini də şərtləndirmişdr. Orta əsrlər dövründə Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində daşişləmə, oyma, nəqqaşlıq, heykəltaraşlıq sahələrinin həm mövcud olmasını, həm də inkişaf etdiyini göstərir.

**"Müdafiə istehkamları, iqtisadi əlaqələr və yollar"** adlı ikinci fəsil iki paraqrafdan ibarətdir. İkinci fəsilin **"Müdafiə istehkamları"** adlanan birinci paraqrafında bölgənin orta əsr müdafiə istehkamları – qalalar tədqiq olunmuşdur. Feodal cəmiyyəti tarixinin tədqiq edilməsində qala tipli istehkamların öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Goranboy rayonunun dağlıq hissəsində yerləşən Gülüstan, Göygöl rayonu ərazisindəki Köşkü Qız qalası, Balçılı Qız qalası, Zurnabad qalası, Daşkəsən rayonu ərazisindəki orta əsr qalaları bu tip istehkamlardandır. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində orta əsrlər dövrünə aid qalaları fikrimizcə, iki qrupa bölmək olar: müdafiə istehkamları olan qalalar, feodal qəsri olan qalalar.

Gülüstan qalası Murovdağın ətəyində, Ağdərə və Goranboy rayonlarının sərhəddində, İncəçayın sahilində dəniz səviyyəsindən 1700 m, ətraf ərazilərdən 200-250 m hündürlükdə yerləşir. Bu qalada ilk qısamüddətli arxeoloji kəşfiyyat işləri 1938-ci ilin may ayında E.A.Paxomov tərəfindən aparılmışdır[34]. Gülsütan qalasında 1988-1989-cu illərdə prof. A.M.Məmmədov tərəfindən ətraflı arxeoloji tədqiqatlar aparılmışdır.

Bölgənin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, XIII əsrdə monqol işğalları ilə əlaqədar Azərbaycanın əksər ərazilərində həyat dayansa da, Göygöl və Daşkəsən bölgəsi dağlıq olduğundan monqol zülmündən qaçaraq bu bölgəyə sığınan əhali hesabına yeni bir intibah, inkişaf dövrü başlanır. Bu dövrdə Gəncə yaxınlığında

[34] Пахомов Е.А. Археологические экспедиции по районам Азерб. ССР. // – Баку: Изв. Азерб. ФАН СССР, – 1938, № 3. – с.31.

onun müdafiəsinə xidmət edən orta əsr qalaları inşa edilməyə başlayır. Belə qalalardan Zurnabad qalası, Balçılı Qız qalası, Köşkü Qız qalası Göygöl rayonunun ərazisndə yerləşir.

Gəncə arxeoloji ekspedisiyası 2010-cu ildə Göygöl rayonunun Köşkü kəndi ərazisindəki Qız qalası adlı abidədə arxeoloji kəşfiyyat işləri aparmışdır. Əldə edilən arxeoloji materialların müqayisəli analizi Köşkü Qız qalasının IX əsrdən tikildiyini və XVII əsrə qədər istifadədə olduğunu göstərir[35].

Göygöl rayonun Balçılı kəndinin yaxınlığında, kənddən Daşkəsən dağlarına tərəf gedən yaylaq yolunun yaxınlığında, səfalı yerdə orta əsrlər dövrünə aid bir neçə abidə, yaşayış yerinin qalıqları mövcuddur. Bu abidələrin içərisndə Qız qalası öz möhtəşəmliyi ilə seçilir.

Gəncə ətrafında bir neçə Qız qalası adı ilə tanınan orta əsr qalaları, o cümlədən də Balçılı Qız qalası, Köşkü Qız qalası güclü müdafiə xarakteri daşıyan abidələrdir. Balçılı Qız qalası Gəncənin müdafiəsində mühüm rol oynamışdır.[36] Arxeoloji materiallar Balçılı Qız qalasının IX əsrdə inşa edildiyini, XVI-XVII əsrlərə qədər istifadə olunduğunu söyləməyə əsas verir. Gəncə arxeoloji ekspedisiyası 2013-cü ildə Göygöl rayonun Balçılı kəndi yaxınlığındakı Qız qalasında arxeoloji tədqiqat işləri aparmışdır. Qalanın ətrafında yaşayış binalarının qalıqları vardır. İlkin tədqiqatlar Balçılı Qız qalasının IX-X əsrlərdə tikildiyi ehtimalını söyləməyə əsas verir. Qala üç hissədən ibarətdir və kənardan baxanda iri pilləkəni xatırladır. Hər tərəfdən dərin dərələrlə əhatə olunub. Qalaya yol onun şimal-qərb tərəfindən dərənin dibi və dağ yamacı ilə qalxır. Həmin yolun qorunması üçün xüsusi gözətçi bürcü tikilmişdir. Bürcün qərbində, dağın ətəyində mağara var. Həmin

---

[35] Məmmədov A.M. Qədim Gəncə (arxeoloji tədqiqatlar əsasında). / A.M.Məmmədov – Bakı: Təknur, – 2014 – s.118.

[36] Mehdiyeva A. Azərbaycanın Qərb bölgəsində yerləşən Qız qalaları. // Azerbaycan Milli İlmler Akademisi Milli Azerbaycan Tarih Muzesi, Almaniya Türklerin Dünyası Enstitüsü, Ağrı İbrahim Çeçen Üniversitesi, Secuk Üniversitesi Türk El Sanatları Araştırma ve Uygulama Merkezi Başkanlığı "VII. Uluslararası Türk Sanatı, Tarihi ve Fokloru Kongresi", – Bakü: – 11-15 Nisan – 2017, – s.146.

mağaranın içərisindən qalaya gizli yolun olduğu güman edilir. Qalanın ətrafı bütövlükdə sal qayalarla əhatələndiyindən yalnız qayaların boş qalmış ara məsafələri yerli qaya daşı materialı ilə hörülmüşdür. Ona görə də qala kənardan o qədər də diqqəti cəlb etmir. Balçılı Qız qalası Şəddadilərin Gəncə əmirliyinin müdafiə qalalarından biri olduğu ehtimal edilir.[37]

Gəncə şəhərinin müdafiəsinə xidmət edən və möhtəşəmliyi ilə seçilən qalalardan biri də Zurnabad qalasıdır. Qalanın tikinti xüsusiyyətləri və arxeoloji tədqiqi onun XIII-XIV əsrlərə aid feodal qalalarından biri olduğunu söyləməyə əsas verir. Zurnabad qalası öz tikinti xüsusiyyətlərinə görə demək olar ki, Bakıdakı Mərdəkan, Nardaran, Ramana qalalarına oxşardır. Beş bürcü olan qalanın eni, uzunu, hündürlüyü bir-birilərinə tən şəkildə hörülmüşdür.

Gəncə arxeoloji ekspedisiyası işlədiyi müddətdə Zurnabad qalasında da kəşfiyyat işləri aparmış, onun hər hansı bir feodal ailəsinə məxsus “qəsr”olduğu, sonralar isə “poçt evi” kimi istifadə edildiyi qənaətinə gəlmişdir. Qalanın təqribən 500 metrliyində əsas yolun üstündə gözətçi məntəqəsi var. Görünür həmin ərazidən əvvəllər həm də yerli əhali və maldar tayfalar köç yolu kimi istifadə etmişlər. Mənbə məlumatlarında da XIII-XIV əsrlərdə Azərbaycanda tərəkəmə əhalinin dağlıq ərazilərdə özlərinə kiçik qəsrlər tikdirmələri haqqında məlumat verilir.

Qalaya gedən yolun üstündə qalaya təxminən 500 m qalmış möhtəşəm girş qapısının yanları qalmaqdadır. Bu qalıqlardan məlum olur ki, giriş darvazası üstü tağbənd şəkilində inşa edilmişdir. Burada təkcə giriş qapısı deyil, həm də gözətçi məntəqəsi də mövcud olmuşdur. Belə hesab etmək olar ki, Zurnabad qalası dövrümüzə gəlib çatmış qala qalıqlarından ibarət olmamışdır. Belə ki, qala daha geniş ərazini əhatə etmiş, ərazisi müdafiə divarları ilə dövrələnmişdir. Təxmini hesab etmək olar ki, qalanın əhatə etdiyi ərazi 5 hektardan çox olmuşdur. Burada binalar inşa edilmişdir. Dövrümüzə gəlib çıxmış qala qalıqlarını Zurnabad qala kompleksinin

[37] Məmmədov A.M. Qədim Gəncə (arxeoloji tədqiqatlar əsasında). / A.M.Məmmədov – Bakı: Təknur, – 2014 – s.154-155.

narınqalası hesab etmək olar. Zurnabad qalasında əsasən maldar əhali məskunlaşmışdır.

Bu ilk növbədə XIII əsrdə monqolların işğalı zamanı əkinçiliyin tənəzzülü və maldarlığın inkişafı ilə əlaqədar olaraq tərəkəmə əhalinin varlanması ilə bağlıdır. Zurnabad qalasındakı iri bürcün dairəsi 9 metrdir. İkinci bürcün dairəsi 8 metr, 3-cü və 4-cü bürclərin dairəsi 4 metrdir. Qəsrin içəri tərəfdən ölçüsü 9X7 metrdir. Beşinci bürcün dairəsi də 4 metrdir. Giriş qapısının uçmuş vəziyyətdə hündürlüyü 1 metr 40 sm, eni 2 metr 20 sm-dir. Qalanın divarları yerli tikinti materialı olan çay daşından əhəng məhlulu ilə hörülüb. Bürclərdə mazğallar yoxdur. Qalanın Gəncəçaya doğru həyəti var. Həyətin sol divarının uzunluğu 30 metr, əks tərəfi 10 metrdir. Çayın istiqamətinə görə həyət eyni ölçüdə deyildir. Qəsrin giriş qapısına qədər sağdan divarın uzunluğu 20 metr, soldan 10 metrdir. Divarın qalınlığı 1 metr 20 sm-dir. Həyəti əhatə edən divarda iki salamat bürc var. Böyüyünün dairəsi 8 metr, kiçik bürcün dairəsi 3 metrdir. Qəsrin və qalanın hər tərəfi hündür meşə ağacları ilə örtülüdür.

İkinci fəsilin **“Yaşayış yerlərinin iqtisadi əlaqələri, yollar və körpülər”** adlı ikinci paraqrafında bölgənin iqtisadi əlaqələri, ticarət-karvaqn yolları və bu yollar üzərindəki orta əsrlər dövrünə aid körpülər araşdırılmışdır.

Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin şərq ətəkləri boyu yaşayış yerlərini bir-biri ilə əlaqələndirən yol, başqa sözlə Daşkəsəndən başlayaraq Göygöl rayonu və Goranboy rayonunun dağlıq hissəsi bir xətt boyu yol olmuş, gediş-gəliş intensiv xarakter daşımışdır. Tiflis-Gəncə-Daşkəsəndən yol Əhmədli-Dəstəfur-Zinzahal-Yolqulular-Çanaqçı-Gedəmiş-Zivlən kəndlərinə qədər uzanırdı. Zivlən kəndindən Kəlbəcərə doğru iki istiqamətdə getmək olurdu: onlardan biri Zivlən kəndindən başlayaraq Murov dağının sağ yamacı ilə Molla Həsənli yurdu və Bənövşəli yaylağından keçərək Kəlbəcər rayonunun Babaşlı, Lev, Təkəqaya kəndlərinə gedib çıxır, digəri isə Zivləndən Almalı, Kollu, Çıraqlı kəndlərinə, oradan isə bir yol Uzun Güneydən keçərək Murov vasitəsilə Kəlbəcərə və Göyçə mahalına, digəri isə Kəpəz dağına

doğru istiqamətlənirdi. Bu yoldan adətən yay aylarında daha çox istifadə edilirdi. Daşkəsən rayonu ərazisində orta əsr körpüləri dövrümüzə gəlib çıxmışdır. Bu körpülər bölgədən axan Gəncə çayı, Qoşqar çayı, Quşqara çayı üzərində inşa edilmişdir. Belə körpülərdən biri də Bayan kəndində Quşqara çayının üzərində salınmışdır. Bayan kəndində Quşqara çayının üzərində iki vardır. Bunlardan biri XV əsrə, digəri isə XVII əsrə aid edilir.[38]

Dəstəfur kəndində Gəncə çayı üzərində uzunluğu 15 metr, eni 3,5 metr olan XIII əsrə aid körpü vardır. Körpü inşa edilərkən sel daşqınları zamanı körpünün kənarlarının aşılnaraq uçmaq təhlükəsini aradan qaldırmaq üçün hər iki tərəfdən qayaya söykənmiş halda tikilmişdir. Körpü birtağlı olub çay daşı ilə əhəng qarışığından hörülmüşdür.

Göygöl rayonu ərazisində də orta əsrlər dövrünə aid körpülər dövrümüzə gəlib çıxmışdır. Göygöl şəhəri yaxınlığında Gəncə çayının üzərində XVI əsrə aid iki aşrımlı körpü və XII əsrə aid Ağ körpü, Dozular kəndində XVI əsrə aid bir aşrımlı körpü, Topalhəsənli kəndində orta əsrlər dövrünə məxsus iki tağlı daş körpü vardır.

**"Dini abidələr"** adlı üçüncü fəsil iki paraqrafdan ibarətdir. Üçüncü fəsilin **"Məbədlər"** adlanan birinci paraqrafında bölgədəki orta əsr məbədləri tədqiq edilmişdir. Qafqaz Albaniyasında xristianlığın ilk yayıldığı və möhkəmləndiyi ərazilərdən biri də məhz Böyük Qafqazın cənub ətəkləri və Kiçik Qafqaz dağlarının şərq ətəkləri olmuşdur.[39] Müasir Göygöl rayonu coğrafi baxımdan Kiçik Qafqazda yerləşən dağlıq rayon olmaqla yanaşı ilk orta əsrlər dövrünə aid dini abidələrin çoxluğu və zənginliyi ilə diqqəti cəlb edir. Bölgənin Balçılı, Zurnabad, Şəhriyar (köhnə adı Mizrik), Kərəmli, Yeni Zod, Çaykənd, Yeni Göyçə (Əbləh) və başqa kəndlərinin yaxınlığında, eləcə də rayonun sıx meşəlik ərazilərində

---

[38] Məmmədov A.M. Dəstəfur-Daşkəsən (tarixi-arxeoloji-etnoqrafik tədqiqat). / A.M.Məmmədov – Bakı: Elm, – 2000 – s.21.

[39] . Геюшев Р.Б. Христианство в Кавказской Албании. / Р.Б.Геюшев – Баку: Элм, – 1984 – с.138-140.

çoxlu sayda ilk orta əsrlər dövrünə aid qəbir abidələrinə və xristian məbədlərinin qalıqlarına rast gəlinir. Göygöl ərazisindəki məşhur məbədlərdən biri VI-VIII əsrlər dövrünə aid Band məbədidir. Göygöl bölgəsindəki ilk orta əsr məbədlərdən biri də yerli əhalinin Sınıqkilsə adlandırdığı məbəddir. Sınıqkilsə 1285-ci ildə Alban katolikosu Stepanın göstərişi ilə bu bölgənin hakimi Somak və yepiskop Qriqorinin dövründə İohan tərəfindən ucaldılımışdır. 1639-cu ildə isə burada bərpa işləri həyata keçirilmişdir.

Goranboy rayonunun dağlıq kəndləri yaxınlığında Alban xrsitian məbədlərinin qalıqlarına rast gəlinməkdədir. Belə məbədlərə Yuxarı Ağcakənd, Buzluq, Erkəc, Ballıqaya, Gülüstan, Qaraçinar, Börü və s. abidələri misal göstərmək olar. Belə orta əsr Alban xrsitian məbədlərindən biri də Xarxaput məbədidir. Xarxaput məbədi memarlıq baxımından Mingəçevir, Ağdam rayonundakı Govurqala, Oğuz rayonundakı Calut, Göygöl rayonundakı Band, Azad məbədlərinə daha yaxındır.

Daşkəsən rayonu ərazisində dövrümüzə gəlib çıxmış xeyli sayda dini abidələr vardır. Daşkəsən bölgəsindəki Dəstəfur məbədi kilsəsi plan quruluşuna görə üçnefli bazilika olub, trapesvari formada inşa edilmişdir. Bölgədə diqqəti cəlb edən məbədlərdən üçü Daşkəsən rayonun Bayan kəndində yerləşir: Bayan kilsəsi, Bayan monastırı-Çiçərvəng məbədi və Çiçrəvəng məbədinin yaxınlığındakı kilsə. Hər iki məbəd Bayan kəndinin yüksək ərazilərində inşa edilmişdir.

Daşkəsən rayonunun qədim yaşayış məskəndlərindən biri olan Qabaqtəpə kəndində yerləşən kilsə XV əsrdə inşa edilməsi ehtimal olunur. Bu məbəd üçnefli düzbucaqlı formada inşa edilmiş bazilikadır. Bu məbədin uzunluğu 21,5 metr, eni isə 13,30 metrdir. Daşkəsən rayonunun Quşçu kədnində yerləşən qədim alban məbəddir. Məbəd Müqəddəs Tərcüməçilər monastırı adlanır. Bu kilsə 487-ci ildə inşa edilmiş, 989 və 1845-ci illərdə bərpa edilmişdir. Hal-hazırda kilsə yarıuçuq vəziyyətdədir. Daşkəsən rayonunun Zəylik kəndi ərazisində iki Alban məbədi vardır. Birinci abidə Zəylik kəndinin mərkəzində yerləşir. Bu məbəd üçnefli kilsədir.

Daşkəsən rayonun Yolqullar kəndi yaxınlığında, meşəlik ərazidə məbəd kompleksinin qalıqları vardır. Müşahidələr nəticəsində müyyən olunur ki, məbəd üçnefli bazilika olmuşdur. Çovdar kəndinin mərkəzində üç nefli kilsə vardır. Abidənin daxili və xarici üzündə müəyyən dağıntı işləri getmişdir. Çovdar kəndinin inzibati ərazi vahidliyində yüksək dağlıq və meşəlik ərazidə bir nefli alban xristian abidəsi qeydə alınmışdır.

**"Qəbir abidələri"** adlı ikinci paraqrafda bölgənin orta əsrlər dövrünə aid qəbir abidələri nəzərdən keçirilmişdir. Daşkəsən-Göygöl bölgəsindəki xrsitian qəbirlər əsasən sadə torpaq qəbirlər, daş qutu qəbirlər və üstü sal daşlarlara örtülmüş qəbirlərdən ibarətdir. Daşkəsən rayonu ərazisində ilk orta və orta əsr xristian qəbirstanlıqlara, qəbir abidələrinə Bayan, Dəstəfur, Quşçu, Əmirvar, Çovdar, Aşağı Daşkəsən, Danayeri, Qabaqtəpə və s. yaşayış yerlərində, o cümlədən də Zivlənçay və Alaxançallı çay hövzəsindəki meşəlik ərazilərdə, Göygöl rayonunun Şəhriyar, Kərəmli, Balçılı, Yeni Zod, Çaykənd, Zurnabad kəndləri ərazisində, eləcə də bu bölgədəki məbədlərin yaxınlığında rast gəlinmişdir.

Dissertasiyanın **"Nəticə"** hssəsində Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində aparılan tarixi-arxeoloji tədqiqatlardan, elmi ədəbiyyat və mənbələrdəki məlumatlardan və onların təhlilindən çıxarılmış elmi qənaətlər ümumiləşdirilmiş və gəlinmiş elmi nəticələr göstərilmiş, təkliflər irəli sürülmüşdür..

-Tədqiqatdan aydın olmuşdur ki, Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisində orta əsrlər dövründə çoxlu sayda yaşayış məntəqələri, feodal qəsrləri və qalalar mövcud olmuşdur. Bu qalalar Gəncə şəhərinin müdafiəsini möhkəmləndirmiş, döyüşlər zamanı əhalinin əsas sığınacaq yerləri olmuşdur. Həmçinin dağlıq ərazidə yerləşən qala və feodal qəsrləri yay mövsümində Gəncə şəhərinin əyan və hakimlərinin, həmçinin digər əhali qrupunun yayladığı məkan idi.

**-** Tarixi-arxeoloji tədqiqat belə bir nəticəyə gəlməyə imkan verir ki, bəhs olunan bölgədə ilk orta və orta əsrlər dövründə çoxlu sayda

yaşayış məntəqələri mövcud olmuş, bu bölgədə əhali sıx məskunlaşmışdır.

-Tədqiqatdan aydın olmuşdur ki, Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisi orta əsrlər dövründə Alban özünüdərkin, Alban xristian dininin, mədəniyyətinin mövcud olduğu və qorunduğu bölgə olmuşdur.Buradakı Alban xristian məbədləri Alban katolikosluğunun ləğv olunmasınadək fəaliyyət göstərmişdir.

- Tədqiq etdiyimiz bölgədə IX əsrdən etibarən qalalar inşa edilməyə başlamışdır. Tədqiqatçılar bu dövrü Azərbaycanın memarlıq tarixində yüksəliş dövrlərindən biri hesab edirlər. IX əsrdən etibarən İncəçay sahilində Gülüstan qalası, Göygöl rayonu ərazisində Balçılı Qız qalası, Köşkü Qız qalası inşa edilmişdir. Bölgədəki güclü müdafiə sisteminə malik olan qalalardan biri də XII-XIV əsrlərdə inşa edilməsi ehtimal edilən Göygöl rayonu ərazisində Gəncəçayın sahilində yerləşən Zurnabad qalasıdır.

- Arxeoloji materialların təhlili, etnoqrafik tədqiqatlar və yazılı mənbələr bir daha təsdiq edir ki, tədqiq etdiyimiz bölgənin əhalisi etnik mənsubiyyət etibarı ilə türk dilli boylardan ibarət olmuşdur. Bunu Daşkəsən-Göygöl bölgəsində aşkar edilmiş daş qutu və kurqan qəbir abidələrinin xüsusiyyətləri, antik və ilk orta əsrlər dövründə buranın sakinlərinin türkdilli boylardan sakların, hun boylarının, savirlərin, albanların və s. olmasını, orta əsrlər dövründə də türkdilli əhalidən ibarət olmasını bir daha təsdiq edir.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**

1. Orta əsrlərdə Gəncəbasarda şüşə istehsalı . // – Gəncə Dövlət Universiteti “Gənc alimlərin I Beynəlxalq elmi konfransı”, – Gəncə, – 17-18 oktyabr, – 2016, – I hissə, s. 5-7.

2. Daşkəsəndə ilk orta əsr yaşayış məskənləri. // – Gəncə: Gəncə Dövlət Universiteti Elmi xəbərlər, Fundamental, humanitar və təbiət elmləri seriyası, – 2017. №3, – s.265-270.
3. The Medieval Monuments of the Shamkir-Gadabay district of Azerbaijan Historical Archeological. // – Vienna: The European Journal of Humanities and Social Sciences, – 2020. №3, – s.7-24.
4. Azərbaycanın Göygöl bölgəsinin erkən orta əsr alban məbədlərinin tarixi-arxeoloji tədqiqinə dair. // – Bakı: Tarix və onun problemləri, – 2021. №2, – s.243-247.
5. Средневековые городские поселения Дашкесанского района. // – Украина: Актуальні питання гуманітарних наук: міжвузівський збірник наукових праць молодих вчених Дрогобицького державного педагогічного університету імені Івана Франка, – 2021. Том 1, выпуск 39, – стр.4-7.
6. Daşkəsən rayonunun Alban xristian dini abidələri. // – Bakı: Tarix və onun problemləri, – 2021. №3, – s.188-192.
7. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisindəki qəbir abidələr. // – Bakı: Geostrategiya Beynəlxalq ictimai-siyasi,elmi-nəzəri jurnal, – İyul-Avqust 2021. №04(64), – s.58-61.
8. Orta əsrlərdə Daşkəsəndə metalişləmə sənəti. // – Qafqaz Universiteti "Gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransı", – Bakı, – 29-30 aprel, – 2016, – II kitab, s. səh. 1715-1717.
9. Goranboy rayonunun dağlıq kəndləri ərazisindəki alban xristian dini abidələri. // – The XIV İnternational Scientıfıc Symposıum "A Person in History". Dedicated to the 140th anniversary of the founder of modern Turkey Mustafa Kamal Ataturk, – Ankara, – Turkey, – 26 may, – 2021, – s.210-215.
10. Azərbaycanın Qərb bölgəsinin Kiçik Qafqaz ərazisinin memorial abidələri. // – AMEA Folklor İnstitutu. 4th international Nowruz conference on scientific research. Karabagh. Azerbaijan, – 18-21 mart, – 2021, – Pp.168-172.

Dissertasiyanın müdafiəsi 29 may 2024-cü il tarixində saat 12⁰⁰-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi 76.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:
Kağızın formatı: 60/84, 16/1
Həcm: 48.342
Tiraj: 100